**Azərbaycan "Geoiqtisadi sabitlik dəhlizi" kimi: Özbəkistanla 1 milyardlıq ticarət hədəfi biznes üçün yeni üfüqlər açır**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Özbəkistana dövlət səfəri, Ali Dövlətlərarası Şuranın üçüncü iclası çərçivəsində "Əbədi dostluq haqqında Müqavilə"nin imzalanması və mühüm birgə layihələrin təməlinin qoyulması iki ölkə arasında strateji müttəfiqliyin iqtisadi arxitekturasında yeni mərhələnin başlanğıcıdır. Dövlət, hökumət, sənaye qurumları və regionlar səviyyəsində formalaşan bu fəal inteqrasiya modeli təkcə iki ölkənin deyil, bütövlükdə geniş regionun iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilməkdədir.

Qlobal təchizat zəncirində olduqca mürəkkəb bir mənzərənin, yəni Şimal marşrutlarında ənənəvi xətlərin qırılması və Cənub istiqamətindəki geosiyasi həssaslığın davam etdiyi bir dövrdə Azərbaycanın yaratdığı etibarlı infrastruktur həlledici əhəmiyyətə malikdir. Şərqlə Qərb arasında təhlükəsiz yükdaşımalar üçün imkanların daraldığı mövcud reallıqda Azərbaycan beynəlxalq ticarət üçün etibarlı və davamlı "Geoiqtisadi Sabitlik Dəhlizi"nə çevrilib. Özbəkistan kimi inkişaf edən, lakin açıq dənizlərə birbaşa çıxışı olmayan dövlətlər üçün Azərbaycanın təqdim etdiyi bu institusional, nəqliyyat və tranzit sabitliyi müstəsna əhəmiyyət daşıyır. Eyni zamanda, yaradılan bu dəhliz Azərbaycan ixracatçıları üçün də Mərkəzi Asiyanın ən böyük istehlak bazarına maneəsiz və sürətli giriş qapısıdır.

"Ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə Proqram" və "Praktiki Fəaliyyət Planı (Yol Xəritəsi)" tərəfdaşlığın miqyasını müəyyən edən ən mühüm sənədlərdir. Bu sənədlər biznes dairələri, ixracatçılar və logistika şirkətləri üçün konkret hərəkət təlimatıdır. Yol Xəritəsinin icrası gömrük və tranzit prosedurlarının optimallaşdırılmasını, qarşılıqlı investisiyaların təşviqini, logistika xərclərinin tənzimlənməsini və sənaye kooperasiyası çərçivəsində birgə əlavə dəyər zəncirinin yaradılmasını təmin edəcək.

1 milyard dollarlıq hədəfə çatmaqda rəqəmsallaşmanın rolu xüsusilə böyükdür. Bu həcmdə dövriyyəyə ənənəvi alqı-satqı metodları ilə nail olmaq zaman tələb edir. Buna görə də elektron kommersiyanın genişləndirilməsi, "B2B" platformalarının inteqrasiyası qaçılmazdır. "Azexport.az" portalı artıq bu istiqamətdə aktiv fəaliyyət göstərir. Portal Özbəkistan və Azərbaycan bazarlarında məhsulların qarşılıqlı tanıdılması, ixrac proseslərində tərəfdaşların tapılması və etibarlı ticarət əlaqələrinin qurulmasında

rəqəmsal bələdçi rolunu oynayır. Yeni Yol Xəritəsi bu fəaliyyəti daha da miqyaslandırmaq, sertifikatların elektron mübadiləsi və e-ticarət xətləri ilə mal dövriyyəsini sürətləndirmək üçün geniş imkanlar yaradır.

Qoyulan hədəflər artıq real əməli işlərdə və iqtisadi göstəricilərdə öz əksini tapır. Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bir milyardlıq ticarət dövriyyəsi uzaq bir xəyal deyil, bir neçə ildən sonra çatacağımız nəticədir. Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyev isə son beş ildə qarşılıqlı ticarətin həcminin 3 dəfə artdığını və birgə layihələrin ümumi portfelinin artıq 5 milyard dolları ötdüyünü bəyan etməklə inkişafın dinamikasını diqqətə çatdırıb. 2026-cı ilin yanvar-iyun aylarının yekunlarına əsasən, altı ay ərzində Özbəkistandan idxal 102,3 milyon ABŞ dolları, bu ölkəyə ixracımız isə 73,3 milyon ABŞ dolları təşkil edib. Burada diqqətçəkən əsas məqam dinamikadakı fərq və bazardakı mövqeyimizin sürətlə güclənməsidir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə yerli məhsullarımızın qardaş ölkəyə ixracı 259,2 faiz artım göstərib. Məhz bu sıçrayış sayəsində Özbəkistan hazırda MDB ölkələri sırasında Rusiya və Ukraynadan sonra Azərbaycanın ən çox məhsul ixrac etdiyi 3-cü əsas tərəfdaşına çevrilib.

Daşkənddə hər iki ölkə liderinin iştirakı ilə reallaşan açılış və təməlqoyma mərasimləri bu sözlərin əyani göstəricisidir. Belə ki, “Davr Bank” layihəsinin reallaşdırılması, “Matanat-A” gips zavodunun işə düşməsi, “Landau” STEAM məktəblərinin fəaliyyətə başlaması, habelə SOCAR-ın yanacaqdoldurma məntəqələrinin, “Sea Breeze Uzbekistan” və “Baku City” yaşayış komplekslərinin, “Sur Gold and Silver” zənginləşdirmə fabrikinin və “Gold Fresh Fruits” intensiv meyvə bağlarının təməlinin qoyulması ölkələrimiz arasında mütləq iqtisadi etimadın və yüksək kooperasiyanın göstəricisidir.

Daşkənd, Buxara və Namanqan kimi mühüm regionların da iqtisadi proseslərə bilavasitə cəlb olunması ikitərəfli əlaqələrin artıq ən dərin qatlara nüfuz etdiyini göstərir. Mövcud müştərək investisiya fondu, formalaşan “Geoiqtisadi Sabitlik Dəhlizi” və 1 milyardlıq hədəfi özündə əks etdirən yeni Yol Xəritəsi yerli ixracatçılarımız üçün qardaş Özbəkistan bazarında möhkəmlənmək, eləcə də qlobal ticarət şəbəkəsində mövqelərini daha da gücləndirmək baxımından geniş üfüqlər açır.

**Ayxan Qədəşov / Azexport portalının rəhbəri**

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi**